**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**EMİN NAZİR OĞLU MƏLİKOV**

# AZƏRBAYCAN TARİXİ MUZEYİNİN KOLLEKSİYALARI NEFT SƏNAYESİ TARİXİNİN ÖYRƏNİLMƏSİ VƏ TƏBLİĞİNDƏ MƏNBƏ KİMİ (XIX ƏSRİN II YARISI-XX ƏSRİN I YARISI)

**İxtisas: 5503.02 - Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R T I

**Bakı-2013**

**Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin «Azərbaycanın ən yeni dövr tarixinin ekspozisiyası» şöbəsində yerinə yetirilmişdir**

**Elmi rəhbər:**
***tarix üzrə fəlsəfə doktoru*** **Z.A.Dulayeva**

**Rəsmi opponentlər:**
***tarix ğzrə elmlər doktoru*** **A.Ə.Paşayev**
***tarix üzrə fəlsəfə doktoru*** **B.K.Kərimov**

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universitetinin «Azərbaycan tarixi (Humanitar fakültələr üzrə)» kafedrası**

**Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdindəki tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «_30__»_10_______2013-cü il tarixli iclasında saat ____də olacaqdır.**

**Ünvan: Bakı-AZ 1143, H.Cavid prospekti, 31.**

**Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi arxivində tanış olmaq olar.**

**Avtoreferat «___» ___________ 2013-cü ildə göndərilmişdir**

**Dissertasiya Şurasının elmi katibi:**
**Tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

# I DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı. XX əsrin əvvəllərində Bakıda ilk dəfə olaraq Rusiya İmperator Texniki Cəmiyyətinin nəzdində çox da geniş olmayan muzey təşkil edilmişdi. 13 bölmədən ibarət həmin muzey tematik cəhətdən ardıcıl deyildi. Muzeydə «Neft sənayesi», «Şamaxı zəlzələsi»[1] və s. bölmələr də fəaliyyət göstərmişdir. Təbii ki, dəyərincə iş təcrübəsinin olmadığı və əsasən tədris məqsədli olduğu üçün bunları müasir anlamda muzey adlandırmaq mümkün deyil. Lakin «ilk cücərti» kimi muzey quruculuğu işində əhəmiyyətli addım olmuşdur.**

**Ümummilli lider Heydər Əliyev 1982-ci ilin iyulunda muzey işçilərinin respublika müşavirəsində muzey işinə xüsusi diqqət verərək demişdir: «Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzlərinə çevrilmişdir. Muzeylər, söz yox ki, hər bir vətəndaşın öz diyarının, rayonunun, kəndinin tarixinə bələd olması üçün vacibdir».[2].**

**1920-ci ilin iyununda Azərbaycan SSR Xalq Maarif Komissarlığı nəzdində Respublikada muzeylərin yaradılması və əhali arasında geniş maarifləndirmə işinin aparılması məqsədilə muzey ekskursiyaları şöbəsi təşkil edildi. Elə həmin ilə bu şöbə Dövlət Muzeyi (indiki AMEA Milli Azərbaycan Tarixi Muzeyi) elmi-tədqiqat işinin əsasını, respublikada muzeylərin təşəkkül tapmasının təməlini qoymuşdur. Yeni və ən yeni dövr tarixinə dair elmi-tədqiqat, ekspozisiya planlarının işlənib hazırlanmasında Azərbaycan iqtisadiyyatının mühüm sahəsi olan neft sənayesinin öyrənilməsinə və nümayiş etdirilməsinə xüsusi diqqət yetirilirdi.**

**Vətən tarixşünaslığında neft sənayesinə dair arxiv və ədəbi mənbələrin istifadə edildiyi xeyli sayda monoqrafiyalar və elmi məqalələr var. AMEA Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında saxlanılan neft sənayesinin tarixini əks etdirən materialların öyrənilməsi və təbliği dissertasiya işinin yazılma**

---

[1] Кяримов Б.Азярбайъанда тарих-дийаршцнаслыг музейляринин тяшяккцлц вя инкишафы тарихи. Бакы, Елм, 2008,с.15

[2] Байрамов А. Щейдяр Ялийев вя музейляримиз. Бакы, 1999, с.37

**zərurətini yaratmışdır. Mövzu ona görə aktualdır ki, neft sənayesinin tarixi Azərbaycan tarixşünaslığında ilk dəfə əyani vəsait kimi muzey kolleksiyaları əsasında öyrənilərək, şərh və təsvir edilir.**

**Milli Azərbaycan Tarixi Muzeyi keçən əsrdən elmi-mədəni mərkəz kimi Azərbaycan Respublikasının ictimai-iqtisadi, mədəni həyatının inkişafında xüsusi rol oynamışdır. Burada Azərbaycan tarixinin müxtəlif dövrlərini əks etdirən materiallar toplanmış və mühafizə olunur. Milli Azərbaycan Tarixi Muzeyində mühafizə olunan, neft sənayesi tarixini əks etdirən materialların öyrənilməsi və sistemli şəkildə tədqiq edilməsi hazırda yüksək elmi aktuallığa malikdir. Çünki, zəngin milli neft sənayesi tarixinə dair materialların muzeyin sərgi və ekspozisiyalarda nümayiş etdirilərək göstərilməsi Azərbaycanın dünyada ilk neft sənayesi mərkəzlərindən biri olduğu fikrini irəli sğrməyə əsas verir. XIX əsrin II yarısı XX əsrin I yarısı ərzində neft sənayesi tarixini əks etdirən materialların öyrənilməsi və onların muzey istiqaməti üzrə təbliğ edilməsi bu gün üçün olduqca zəruridir.**

**Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları 2007-ci ilin dekabrında AMEA Milli Azərbaycan Tarixi Muzeyində olarkən «Xatirə kitabı»na yazmışdır: «Tarix Muzeyi əsaslı təmirdən sonra öz fəaliyyətini davam etdirir, muzeyin ekspozisiyası Azərbaycan tarixinin nə qədər qədim və zəngin olduğunu göstərir. Muzeyin bğtğn avadanlıqları dünya standartlarına uyğundur. Muzeyin binası və daxili tərtibatı Azərbaycanın milli sərvətidir».[3] Dövlət başçısının bu xeyir-duası muzey materiallarının qorunması, öyrənilməsi və təbliği məsələlərini akğuallığını daha da artırır. Bu məqsədlə Milli Azərbaycan Tarixi Muzeyində qorunan milli neft sənayesinə aid materialların öyrənilməsi xüsusi elmi aktuallıq kəsb edir.**

**Respublikada müxtəlif təyinatlı muzeylər fəaliyyət göstərir ki, bunlardan biri də 1931-ci ildə təşkil olunmuş neft sənayesində Texniki Təhlükəsizlik muzeyidir. Lakin burada neft sənayesinə dair materiallar olduqca məhduddur.**

---

[3] Милли Azяrbaycan Tarixi Muzeyi тямир-бярпа ишляриндян сонра ачылмышдыр. // Милли Azяrbaycan Tarixi Muzeyi-2008. Бакы: Елм, 2008, с.5

**Qeyd etmək istəyirəm ki, dünyada neft sənayesinin tarixinin təbliği ilə məşğul olan böyük muzeylər fəaliyyət göstərir.Bunlar içərisində Buxaresdəki neft tarixi muzeyi, Vaşqtonda «Amerikan Oil And Gas Historical Society», Hyuston şəhərində «Veys Enerji Xol», Beamant şəhərində «Spindletop Gladys City Museum», Ponka Siti şəhərində «Yeni Konko» və «Marland» neft muzeylərini göstərmək olar.[4]**

**Azərbaycanda isə ilk neft muzeyi xalqımızın Ümummilli lideri Heydər Əliyevin tapşırığı ilə 2001-ci ildə yaradılmışdır.[5] Muzey otaq şəraitində təşkil olunmuş, burada neft sənayesinin tarixini əks etdirən eksponatlar nümayiş etdirilir.**

**2008-ci ilin fevralın 4-də Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq açıq səma altında Neft tarixi muzeyi yaradılması haqqında sərəncam imzalamışdır.[6] Muzeyin yaradılmasında məqsəd Azərbaycanın iqtisadi nailiyyətlərinin əsas amili olan neft sənayesinin təbliğinə nail olmaqdır. Artıq yaradılacaq Neft muzeyi ilə bağlı işçi qrup yaradılmış bu qrupda neft sənayesinə aid tarixi avadanlıqların toplanması və bərpası ilə bağlı işlər aparılır.**

**Dissertasiya işinin aktuallığını şərtləndirən səbəblərindən biri də muzeydə neft sənayesi tarixini əks etdirən materialları üzə çıxarmaq və onların təbliğinə nail olmaqdır.**

**XIX əsrin sonlarından başlayaraq neft sənayesinə texniki nailiyyətlərin tətbiqi neft hasilatının artırılmasına kömək etmişdir. Muzey fondlarında saxlanılan eksponatlar və onların nümayiş etdirilməsi, neft sənayesi tarixinin öyrənilməsi və təbliğ etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu dövrdə xarici kapitalın neft sənayesinə cəlb edilməsi nəticəsində neft hasilatı artmış, Azərbaycan nefti xarici bazarlara çıxarılmışdır. Muzeydə bu dövrü əks etdirən xarici şirkətlərə məxsus kifayət qədər materiallar mühafizə olunur. Bu materialların çoxunu şəkillər təşkil etdiyindən ilk dəfə olaraq faktiki materiallar əsasında şəkilləri təhlil etməklə neft sənayesinin tarixi şərh edilir. Bütün bunlar işin necə aktual olduğunu göstərir. Muzey**

---

[4] www.adna.baku.az; www.icimq.orq; www.geo.um.edu;www worldleisurejobs.com

[5] Халг гязети, 2001, 7 май

[6] Азярбайъан гязети, 2008, 5 феврал

materiallarının öyrənilməsi və onların təbliğ edilməsi bu günün əsas tələblərindən biridir. Milli Azərbaycan Tarixi Muzeyində illər boyu toplanmış, neft sənayesi tarixini əks etdirən materialların çox cüzi hissəsi məqalələrdə öz əksini tapmışdır. Bu materiallarda neft çıxarma, neftin hasilatı, fəhlələrin işi, mütəxəssis və neftçilərin səmərələndirici təklifləri və s. kimi məsələlər əks olunmuş, digər tərəfdən illərlə neft hasilatında əldə edilmiş nəaliyyətlərin muzey materiallarında öyrənilməsi və təbliğ edilməsi dissertasiya işinin aktuallığını göstərir. Bu materialları öyrənmək və muzeydə müxtəlif ekspozisiyaların və sərgilərin təşkil edilməsi məsələsi dissertasiya işinin yazılmasını zəruri etmişdir.

Tədqiqatın xronoloji çərçivəsi dissertasiada qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq XIX əsrin II yarısı və XX əsrin I yarısına qədərni düvrğ əhatə edir. Bu dövr müddətində Azərbaycan Tarixi Muzeyində neft sənayesi tarixinə dair materiallar və görkəmli neftçi, geoloqlara aid sənəd, eksponat, kolleksiya tədqiqata cəlb edilmiş, onların təsviri, təsnifatı verilmişdir.

Mövzunun öyrənilmə səviyyəsi. Azərbaycan tarixşünaslığında müəllifin seçdiyi dissertasiya mövzusuna dair demək olar ki, kompleks şəkildə elmi araşdırmalar aparılmamışdır.

Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyaları neft sənayesinin tarixinin öyrənilməsi və təbliğində mənbə kimi, tədqiq olunan iş tarixşünaslığımızda ilk mövzu olması dissertasiya işinin elmi-metodoloji cəhddir.

Azərbaycan neft sənayesinin tarixinə dair Vətən tarixşünaslığında kifayət qədər əsərlər yazılmışdır. Lakin «Azərbaycan Tarixi Muzeyinin Kolleksiyaları neft sənayesinin tarixinin öyrənilməsi və təbliğində mənbə kimi (XIX əsrin II yarısı - XX əsrin I yarısı)» mövzusuna dair heç bir konkret tədqiqat aparılmamışdır. Azərbaycan Tarixi Muzeyində toplanmış materiallar ekspozisiyalarda ayrı-ayrı dövrlərdə təbliğ olunsalar da, xüsusi tədqiqat obyekti olmamışdır.

Tədqiqat işində əsasən, neft sənayesinin tarixini əks etdirən materiallara, monoqrafiyalara, kitab və məqalələrə istinad olunmuşdur. Dıssertasiya işində dövrü mətbuatdan geniş istifadə edilmişdir.

**A.Ağazadənin «Ağa Nemətulla»[7] kitabçası, görkəmli neftçi haqqında yazılmış ilk əsərlərdən biridir. Kitabça 1948-ci ildə Azərbaycan dilində nəşr edilmişdir. Əsərdə Ağa Nemətullanın neft sənayesinə gəlişi və neftçi kimi fəaliyyətindən bəhs olunur. Ağa Nemətullanın Azərbaycan neft sənayesindəki rolunun öyrənilməsində bu kitabın xüsusi rolu vardır. 1948-ci ildə görkəmli neftçilər Gülbala Əliyev, Ağa Hüseyn Qafarov haqqında da kitabçalar nəşr edilmişdir.[8] Bu kitabçalarda neftçilərin gördüyü işlərinə, öhdəliklərini yerinə yetirmələrinə, səmərələşdirici təkliflərinə dair məlumatlar verilmişdir. Tədqiqat işində «Neft sənayesinin yenilikçiləri» kitabına da müraciət edilmişdir.[9] Kitabda Azərbaycan neft sənayesinin yenilikçiləri haqqında məlumat verilməklə yanaşı, neftçilərin sosializm yarışlarına qoşulması, səmərələşdirici təkliflərin Ümumittifaq səviyyədə neft sənayesinə tətbiqinin müsbət nəticələri haqqında məlumatlar işıqlandırılmışdır. C. Əliyevin «Azərbaycanda neft sənayesinin inkişafı tarixindən»[10] kitabında Azərbaycan neft sənayesinin 1920-50-ci illərdəki inkişaf tarixi işıqlandırılır. Kitabda müharibədən sonrakı illərdə Azərbaycan neft sənayesinin inkişafına xüsusi diqqət verilmişdir. Burada dərin nasos istismarmm texniki cəhətdən yenidən qurulması, kompressor istismarının təkmilləşdirilməsi, mədənlərin yeni avadanlıqlarla təchiz edilməsi haqqında ətraflı məlumat verilmişdir. Dissertasiya işində muzey materiallarının öyrənilməsi və təsfirinə aid ümumi materiallar bu əsərdə daha geniş verilmişdir. Bu məqsədlə tədqiqat işində bu əsərə geniş yer verilmişdir. Muzeydə mühafızə olunan sovet dövrü materiallarının öyrənilməsində əsər xüsusi əhəmiyyətə malikdir.**

**Sovet hakimiyyəti illərində muzeylər daha çox ideoloji təbliğat müəssisələri kimi fəaliyyət göstərmişdir. A. Bayramov, S. Məcimovun «Tarix-diyarşünaslıq muzeylərində sovet dövrü**

---

[7] Аьазадя А. Аьа Немятулла. Бакы, Азярняшр, с.28

[8] Мустафаев М.М. Сокровища Бухты Ильица. Баку, Азярняшр. 1973; Нефт сянайеси йениликчиляри. Бакы: 1954; с.56

[9] Нефт сянайеси йениликчиляри. Бакы, Azərnəşr, s.75, 1954.

[10] Ялийев Ъ. Азярбайъанда нефт сянайесинин инкишафы тарихиндян. Бакы: Азярняшр, 1960, с.84

**materiallarınm kompleksləşdirilməsi» məqaləsi muzeyşünaslıq baxımından dəyərli işdir[11]. Məqalədə ideya-siyasi rola malik olan muzeylərin kompleksləşdirilməsi və ekspozisiyaların təşkili haqqında məlumat verilir.**

**S.Quliyev, R.Nəzərovanın «Azərbaycanda neft quyularının qazılması tarixindən» [12] adlı əsərində Azərbaycanda neft sənayesinin yarandığı vaxtdan bəri neft quyularının qazılmasının texnika və texnologiyasının inkişafı tarixi şərh edilir. Kitabın I fəslində XIX əsrin sonlarından 1960-ci ilə qədər Azərbaycanda neft quyularının qazılması tarixindən bəhs edir. Burada qazıma işlərinin aparılması, quyuların gövdəsinin dairəvi və ya dördbucaq şəklində qazılması haqqında məlumat verilir. Əsərin IV fəslində rotorla qazıma üsulu, turbin qazıması tarixində maili qazıma, dənizdə qazıma, küt qazıma, ikigövdəli qazıma, çox dərin qazıma haqqında məlumat verilir. Kitabda dənizdə neft quyularının qazılması strukturu verilmiş və dənizdə estakadada qurulmuş buruqlar haqqında söhbət açılır. Əsasən, şəkillərdən ibarət olan muzey materiallarının öyrənilməsində əsərin böyük əhəmiyyəti vardır. Əsərdən XIX əsrin II yarısına aid muzey materiallarının öyrənilməsi və neft quyularını təsvir edən materialların şərhində geniş istifadə edilmişdir.**

**M.Quliyevin «Xalq sənətkarlığı sərgisi» adlı məqaləsində Milli Azərbaycan Tarixi Muzeyində təşkil edilmiş sərgi haqqında məlumat vermişdir. [13] Məqalədə Muzeydə təşkil olunmuş sərgidə digər tarixi eksponatlar kimi XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid neft sənayesində istifadə olunan avadanlıqların (tartar vedrə, fanar, neft quyularının qazılmasında istifadə olunan qurğular) nümayiş olunmasından bəhs edilir.**

---

[11] Байрамов А., Мясимов С. Тарих-дийаршщнаслыг музейляриндя совет дюврц материалларынын комплекслящдирилмяси. // Мядяни-маариф иши. 1981, №2, с. 11-13

[12] Гулийев С., Нязярова Р. Азярбайъанда нефт гуйуларынын газылмасы тарихиндян. Бакы: Азярняшр, 1962. с.107

[13] Гулийев М. Халг сяняткарлыьы сярэиси. Дювлят Тарих Музейи. (ХЫХ ясрин сону ХХ ясрин яввялляриндя Азярбайъанда сяняткарлыг) адлы сярэи щаггында. // Елм вя Щяйат, 1977, №5, с. 23-25.

**Dənizdə neftçıxarmaya aid digər qiymətli əsər R.Rəhmanov və A.Rəhimovun 1961-ci ildə nəşr edilmiş «Xəzər və neft»[14] kitabıdır. Əsərdə Xəzər dənizinin geologiyasından, neft yataqlarının kəşfindən, «Neft Daşlarının» salınmasından, neftin nəqlindən ətraflı məlumat verilir. Burada «Neft Daşlarında» fəhlələr üçün yaradılmış şərait haqqında da dəyərli məlumatlar vardır. Qeyd etmək lazımdır ki, Xəzər dənizində neft çıxarmaya dair muzey materialları daha çoxluq təşkil edir. Bu əsərdən, xüsusilə «Neft Daşlarına» aid şəkil və sənədlərin öyrənilməsində istifadə olunmuşdur.**

**Azərbaycan neft sənayesi tarixinə aid əsərlərdən biri 1967-ci ildə nəşr edilmiş R.Qədimovun "Azərbaycanda neftçıxarma sənayesinin inkişafı uğrunda fəhlələrinin mübarizəsi (1951-1958-ci illər)"[15] adlı kitabıdır. Kitabda neft sənayesinin inkişafından danışılır, qarşıda duran vəzifələr haqqında məlumat verilir. Kitabda Azərbaycan neftçilərinin əməyi yüksək qiymətləndirilir və neftçilərin planı vaxtlı-vaxtında yerinə yetirdikləri qeyd edilir. Əsərdə, keçən əsrin 50-ci illərinə aid muzey materialları içərisində fəhlələrin iş rejimi, əmək fəaliyyətlərini əks etdirən materialların öyrənilməsində istifadə edilmiş və ona istinadən dissertasiya mətnləri hazırlanmışdır. Azərbaycan neft sənayesinin tarixi aparılmış tədqiqat işlərində, namizədlik və doktorluq dissertasyalarında da öz əksini tapmışdır. H.Fərruxovun "Azərbaycan partiya təşkilatının neft sənayesidə texniki tərəqqi uğrunda mübarizəsi (1951-1958)"[16], Ə.Ələkbərovun "Sənayedə qabaqcıl təcrübənin təbliği və tərəqqi üzrə Bakı şəhəri partiya təşkilatının fəaliyyəti (1959-1965-ci illər)"[17] və s. kimi əsərləri göstərmək olar. Yuxarıda göstərilən tədqiqat əsərlərində muharibədən sonrakı**

---

14 . Рящманов Р., Рящимов А. Хязяр вя нефт. Бакы: Азярняшр, 1961. с.181

15 Гядиmов Р. Азярбайъан фящляляринин республика нефтчыхарма сянайесинин даща да инкишаф етдирмяси уьрунда фящлялярин мцбаризяси.(1951-1958-ci illяr) Бакы, 1967. с.161

16 Фяррухов Щ. Азярбайъан партийа тяшкилатынын нефт сянайесиндя техники тярягги уьрунда мцбаризяси. Бакы, 1966, с.185

17 Ялякбяров Я. Сянайедя габагъыл тяърцбянин тяблиьи вя тярягги цзря Бакы шящяри партийа тяшкилатынын фяалийяти.(1959 – 1965) Bакы, 1967. с.189

**dövrdə neft sənayesinin dirçəlişini əks etdirən muzey materiallarının öyrənilməsində istifadə edilmişdir.**

**Azərbaycan neft sənayesinin tarixini əks etdirən əsərlərdən biri də A.Rəsulovun 1962-ci ildə nəşr edilmiş "Azərbaycan neft sənayesinin inkişafı tarixindən"[18] kitabıdır. Əsərdə Azərbaycan neft sənayesinin oktyabr çevrilişinə qədərki vəziyyəti qısa xülasə şəklində verilmişdir. Burada ilk neft quyularının qazılması, neft sənayesinə xarici kapitalın axını haqqında məlumat verilir. Əsərin neft sənayesinin bərpası və onun texnikasının yenidən qurulması fəslində yeni quyuların qazılması, yeni texnikanın sənayeyə tətbiqi, yeni üsullarla quyuların qazılmasından danışılır. Əsərdə Böyük Vətən Müharibəsi illərində (1941-1945-ci illər) Azərbaycan neftçilərinin rolu yüksək qiymətləndirilmişdir. Burada qeyd edilir ki, müharibə illərində Azərbaycan neftçilərinin səmərələşdirici təkliflərinin tətbiqi nəticəsində dövlət vəsaitlərinə qənaət edilmişdir. Sovet dövrünü əks etdirən muzey materiallarının öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Bibiheybət buxtasının qurudulması məsələsi burada geniş verilmiş, bu da dənizdə neft çıxarmaya aid muzey materialların öyrənilməsində mühum rol oynayır.**

**A.Rəsulovun digər əsəri "Neft uğrunda Azərbaycan Kommunist Partiyasının mübarizəsi"[19] kitabıdır. Kitabda respublikanın neft sənayesində tətbiq edilən texniki tərəqqinin nailiyyətlərindən, Xəzər dənizində neft yataqlarının aşkara çıxarılması sahəsində aparılan axtarışlardan, neftçi kadrların yetişdirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən bəhs edilir. Kitabda o dövr üçün ənənəvi olaraq neft sənayesinin inkişafında Kommunist Partiyasının rolu haqqında geniş məlumatlar verilmişdir. Burada dənizdə neft çıxarılmasına və «Neft Daşlarında» estakadaların qurulmasına daha ətraflı yer verilmişdir. Dissertasiya işində bu əsərə əsaslanaraq muzey materiallarının öyrənilməsi və şərhi məsələləri öyrənilməyə çalışılmışdır.**

---

[18] Рясулов А. Азярбайъанда нефт сянайесинин инкишафы тарихиндян. Бакы, Азярняшр, 1962, с.154

[19] Рясулов А. Нефт уьрунда Азярбайъан Коммунист Партийасынын мцбаризяси. Бакы, Азярняшр, 197, с.224

**Ə.Sultanov, R.Məmmədzadənin "Azərbaycan faydalı qazıntılar xəzinəsidir"[20] kitabında Respublikanın digər faydalı qazıntıları ilə yanaşı neft və qaz çıxarılmasının tarixi, neft sənayesinin inkişafı, neft yataqlarının axtarışı və kəşfiyyatı, Azərbaycanda neftin çıxarılması sahəsində böyük xidmətləri olan bir sıra görkəmli alimin fəaliyyəti haqqında qısa və maraqlı məlumat verilir.**

**M.İsmayılov, M.İbrahimovun 1991-ci ildə çap edilmiş "Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi"[21] adlı monoqrafiyasında Azərbaycan neft sənayesinin tarixi qədim dövrdən 1917-ci ilə qədərki dövründə neft sənayesinin tarixi geniş şəkildə işıqlandırılmışdır. Əsərdə neft istehsalının təmərküzləşdirilməsi, kapitalın mərkəzləşdirilməsi, neft sənayesinin səhmləşdirilməsi, neft müəssisələrinin banklar tərəfindən maliyyələşdirilməsi, iri maliyyə-sənaye birliklərinin yaranması, neft sənaye burjuaziyasının nümayəndələrinin fəaliyyəti haqqında ətraflı məlumat verir. Əsərdə XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Azərbaycanda neft sənayesinin inkişafı rəqəm və sxemlərdə göstərilmişdir. Bu tədqiqat əsərindən Milli burjaziya və xarici neft şirkətlərinə aid materiallar daha ətraflı verilərək araşdırılmışdır. Əsərdə əsasən fəhlələrin əmək fəaliyyəti, neft sənayesinin ümumi vəziyyəti araşdırılmışdır. Muzeydə mövcud olan bu dövrə aid materialların təhlilində əsər böyük elmi əhəmiyyətə malikdir.**

**Xəzər dənizində neftçıxarmanın inkişafı tarixi C.Bəhramovun "Azərbaycan dəniz neftçıxarma sənayesinin yaradılması və inkişaf tarixi"[22] adlı namizədlik dissertasiyasında geniş yer verilmişdir. Tədqiqat əsərində Xəzər dənizində neft yataqlarının tədqiqinə başlanması, dənizdə neftçıxarma sənayesi üçün maddi-texniki bazanın yaradılması və dənizdə**

---

20 Султанов Я., Мяммядзадя Р. Азярбайъан файдалы газынтылар хязинясидир. Бакы, Азярняшр, 1973.

21 Исмайылов М., Ибращимов М. Азярбайъан нефт сянайесинин ингилаба гядярки тарихи. Бакы, 1991. с.221

22 Бящрамов Ъ. Азярбайъан дяниз нефтчыхарма сянайесинин йарадылмасы вя инкишаф тарихи. Тарих елмляри намизяди алимлик дяряъ алмаг цчцн тягдим олунмуш диссертасийанын авторефераты. Бакы, 1999. с.24

**neft yataqlarının istismara verilməsi məsələləri tədqiq edilmişdir.**

**H.A.Quliyevin "Tarixi-etnoqrafik materialların diyarşğnaslıq muzeylərinin ekspozisiyasında güstərilməsi haqqında" məqaləsində muzey materiallarının toplanması və onların ekspozisiyada nğmayişi məsələsindən bəhs edilir.** [23] **Məqalədə Azərbaycanda fəaliyyət güstərən diyarşğnaslıq muzeylərinin fəaliyyət prinsipləri mğəyyənləşdirilir. Məqalə muzeylərə cəlb edilən materiallarla Azərbaycan xalqının məişət və mədəniyyətinin üzğnəməxsus spespik milli xüsusiyyətlərin təbliğində xğsusi yeri araşdırılmışdır.**

**Muzey materiallarının öyrənilməsi məsələsi R.A.Haşımovanın "Azərbaycan Tarixi Muzeyinin sovet dövrü ekspozisiyasında memorial materiallar"(N.Nərimanovun materialları üzrə)** [24] **adlı məqaləsində qismən öyrənilmişdir. Lakin bu məqalə yalnız H.Nərimanovun materialları üzrə öyrənilməyə çalışılmışdır. Məqalə muzeyşünaslıq baxımından ekspoziya işinin təşkilində xüsusi əhəmiyyətə malikdir.**

**Azərbaycan Tarixi Muzeyi ekspozisiyaların təşkili məsələsi M.A.Qazıyevin "Azərbaycan Tarixi Muzeyinin ən qədim zamanlardan X əsrə qədərki dövrü əhatə edən ekpozisiyasının elmi əsasları və vəzifələri"**[25] **məqaləsində ətraflı verilmişdir. Məqalədə müəllif tərəfindən muzeyin qarşısında duran vəzifələr, ekspozisiyaların təşkili və onların vəziyyəti haqqında ətraflı məlumatlar verilmişdir. Bu məqalə muzey materiallarının öyrənilməsi sahəsində əsaslı material hesab edilə bilər.**

---

[23] Quliyev H.A. Tarixi-etnoqrafik materiallarm diyarşünaslıq muzeylərinin ekspozisiyasында göstərilməsi haqqында. Azərbaycan Tarixi Muzeyinin əsərləri, III cild. Bakı, Elm, 1960, s. 152-161.

[24] Щашымова Р. Азярбайъан Тарихи Музейинин совет дюврц експозисийасында мемориал материаллар (Н.Нямановун материаллары цзря). // Азярбайъан тарихиня даир материаллар. Азярбайъан ЕА Тарих Музейинин ясярляри. ЫВ ъилд.т196Кс. 185-192.

[25] Qazıyev MA. Azərbaycan Tarixi Muzeymm ян qədim zamanlardan X əsrə qədərki dövrü əhatə edən ekspozisiyanın elmi əsaslarы və vəzifələri. // Azərbaycan tarixinə dair materiallar. IV cild. Bakı: Елм, 1957, с.5-13

**Muzey materialları əsasında yazılan digər məqalənin H. Quliyev və A.Dadaşzadə birgə işlədikləri "Azərbaycan tarixinin muzey ekspozisiyasında əks etdirilməsi haqqında"[26] məqalədir. Burada əsasən muzey materialları əsasında Azərbaycan tarixinin öyrənilməsi məsələsinə üstünlük verilir və Azərbaycan tarixində muzeyin rolu yüksək qiymətləndirilmişdir.**

**Milli Azərbaycan Tarixi Muzeyinin yeni tarix dövrünün tədqiqadçısı N.Tahirzadənin məqalələrində neft sənayesinin tarixi də öz əksini tapmışdır. Onun yazdığı "Azərbaycan Tarixi Muzeyində kapitalizim dövrünə aid materialların toplama işi təcrübəsində (Bakı və Abşerun üzrə)"[27] məqaləsində əsasən muzeyə materialların toplama işi və xüsusiyyətləri haqqında məlumat verilmişdir. Məqalədə Sabunçu, Suraxanı, Balaxanı, Lökbatan və Bibiheybətdə yerləşən zavodlardan materialların toplanması məsələsi verilmişdir. Məqalədə «Nobel qardaşları», «Ş.Şibayev», «A.Mantaşev» şirkətlərinə aid materialların toplayıb muzeyə verilməsi qeyd edilir.**

**Muzey materialları əsasında ilk dəfə neft sənayesi tarixini əks etdirən materialları öyrənmək təşəbbüsü A.R.Sübhi-xanım tərəfindən cəhd edilmişdir. 1961-ci ildə onun "Muzeyin ekspozisiyasında Azərbaycan neft sənayesinin inkişafı tarixinə dair memorial materiallar"[28] adlı məqaləsi Azərbaycan Tarixi Muzeyinin əsərlərində cap edilmişdir. Məqalədə yalnız o zaman muzeyin yeni dövr ekspozisiyasında nümayiş etdirilmiş materialların qısa təsviri verilmişdir. Məqalədə fond materiallarından istifadə edilməmişdir. Yalnız ekspozisiyada nümayiş edilən əsasən sovet dövrünü əks etdirən materialların təsviri verilmişdir.**

---

26 Quliyev H., Dadaшzadя A. Azяrbaycan tarixinin muzey ekspozisiyasыnda яks etdirilmяsi haqqыnda. "Azяrbaycan mяnbяlяri". 1958, №4, sяh 61-68.

27 Таирзаде Н. Из опыта собирательской работы по периода капитализма в Музее истории Азербайджана (по Баку и Апшерону). // 50-летие Музея Истории Азербайджана (Материалы торжественного собирания и научной сессии). Баку, 1975, с.85-91.

28 Сцбщцханым. Музейин експозисийасында Азярбайъан нефт сянайесинин инкишафы тарихиня даир. Мемориал материаллар. // Азярбайъан Тарихи Музейинин материаллары. Бакы, Елм, 1961, сящ. 193-196.

**Muzey işinin təşkili və inkişafına aid ən dəyərli tədqiqat işi Aytən Baxşıyevin "1920 – 1940-cı illərdə Azərbaycanda muzey işinin təşəkkülü və inkişafı (Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) əsəridir[29]. Bu tədqiqat işi ölkəmizdə muzey quruculuğu tarixinin tədqiqinə həsr olunmuş ilk əsərdir. Dissertasiya Azərbaycanda yeni təşəkkül tapmış muzey quruculuğu üçün mühüm təşkilat strukturdan Muzey – ekskursiya şöbəsinin yaranma tarixi şərh edilmiş, onun fəaliyyət dövrü və funksiyası dəqiqləşdirilmiş, muzeyin tədris – maarifçi və elmi – tədqiqat müəssisəsi kimi fəaliyyətinin bütün mərhələsini açıqlamışdır.**

**Azərbaycanda muzey işinin tarixi ilə bağlı Bəhmən Kərimovun «Azərbaycanda tarix-diyarşğnaslıq muzeylərinin təşəkkğlğ və inkişaf tarixi» adlı kitabından xüsusi əhəmiyətə malikdir.[30] Əsər tədqiq olunan problemə uyğun olmasa da muzeyşğnaslıq baxımından dəyərlı tədqiqat əsəridir. Dissertasiya işində, əsərə əsaslanaraq muzeylərin təşkili və ekspozisiyalarin qurulması məsələlərindən istifadə edilmişdir.**

**«SSRİ-də muzey işi» məcmuəsində muzey quruculuğu tarixi ğzrə dərc olunmuş materiallar tədqiqat işinin araşdırılmasında istifadə edilmişdir.[31] Həmin nəşrlərdə muzeyşğnaslığın təşkili məsələləri araşdırılır və metodoloji problemlər işıqlandırılır.**

**Muzey materialları əsasında neft sənayesinin tarixini əks etdirən ekspozisiyaların təsviri muzeyin əməkdaşı M.Məmmədovun məqalələrində də əsas yer tutmuşdur.**

**Tətdiqatzının yazdığı «Nobelə aid iki plaketka»,[32] «Azərbaycanın gürkəmli netfzisi Fətullah bəy Rğstəmbəyova**

---

[29] Бахшиева А. Из истории музейного дела в Азербайджане. Б., Элм, 2005,152 с.

[30] Кяримов Б.Азярбайъанда тари-дийаршцнаслыг музейляринин тяшяккцлц вя инкишафы тарихи. Бакы: Зийа-Нурлан, с. 182

[31] «Музейное дело в СССР». №5, 1985

[32] Мамедов М. О двух нобелевских плакетках.// Азярбайъан Тарихи Музейи - 2002, Бакы: Елм, 2002, с. 155-159

**Azneftin gündiyi təbrik ğnvanı» (1925)»[33] məqalələrində «Nobel qardaşları» şirkətinə aid iki ədəd planşetin təsvirini vermiş, şirkət haqqında mğhğm məlumatları qeyd etmişdir. İkinci məqaləsində gürkəmli neftzi F.Rğstəmbəyova verilmiş «Təbriknamə»dən danışılır. Hər iki məqalə üyrənilmə baxımından xğsusi əhəmiyyətə malikdir. Qeyd etmək istəyirəm ki, bu məqalələrdə muzey materiallarının cğzi hissəsindən istifadə edilmişdir. Lakin bu məqalələr dissertasiya işi ilə sıx bağlı olmaqla yanaşı bu istiqamətdə yazılmış dəyərlı iş sayılır.**

**Tədqiqat işində Azərbaycan Tarixi Muzeyinin Fondlarından, Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin sənədlərindən və düvrğ mətbuatdan istifadə edilmişdir.[34]**

**Muzeyşünaslıq ədəbiyyatında və problem ilə bağlı digər tədqiqat əsərlərində də qısa da olsa məlumatlara rast gəlinir[35].**

---

[33] Мамедов М. Поздравительный адрес Азнефти старейшему нефтянику Азербайджана, инжинеру Фатулла беку Ркстамбекову» (1925). // Азярбайъан Тарихи Музейи-2004, Бакы: Елм, 2004, с.335-338

[34] АМЕА Милли Азярбайъан Тарихи Музейи, Сянядли Мянбяляр Фонду; Азярбайъан Республикасы Милли Архив Идаряси, Азярбайъан Тарихи Музейи, Ян йени тарих Фонду, Милли Азярбайъан Тарихи Музейи, Гейри Мяскукат Фонду; Милли Азярбайъан Тарихи Музейи, 2008-ъи ил майын 7-дя тяшкил олунмуш експозисийасы; Милли Азярбайъан Тарихи Музейи, Етнографийа Фонду; Милли Азярбайъан Тарихи Музейи, Нумизматика Фонду; Милли Азярбайъан Тарихи Музейи, 1937-ъи ил цчцн щесабаты; Милли Азярбайъан Тарихи Музейи, Сянядли Мянбяляр Фонду; Милли Азярбайъан Тарихи Музейи, Бялядчи, Бакы, 1961; «Азярбайъан эянъляри» гязети; «Азярбайъан» гязети; «Азярбайъан» журналы, «Азярбайъанын нефт тясяррцфаты» журналы вя с.

[35] Бах. Вялиханлы Н. Азярбайъан Тарихи Музейи – 80. // Азярбайъан Тарихи Музейи – 80. Бакы, Елм, 2001, с.7-25; Зейналова М. Норвеч краллыьында Милли Азярбайъан Тарихи Музейинин «Карвансара. Азярбайъан одлар йурду» сярэиси. // Азярбайъан Тарихи Музейи – 80. Бакы, Елм, 2006, с.415-421;Ахундов А.Ю. Развитие бакинской нефтяной промышленности после отмены откупной системы. Азерб. ССР. ЕА Xəbərləri, 1949, №10; Ахундов А.Ю. Монополитический капитал в дореволюционной бакинской нефтяной промышленности. Москва, 1959; Бахшиева А. Из истории музейного дела в Азербайджане. Баку, Элм, 2005; Гусейнов А.И. Зарубежные гости о Музее истории Азербайджана. А Н Азерб. ССР. Материалы по истории Азербайджана, т. IV, Баку, Элм, 1961. с. 201-203; Дулайева З. Рол Музея истории Азербайджана в воспитании турудящихся в духе интернационализма и и советского патриотизма. // 50-летие Музея Истории Азербайджана (Материалы торжественного собирания и научной сессии). Баку, 1975, с.60-64; Гардашов В.К.

**Gürğndğyğ kimi, neft sənayesi tarixini əks etdirən muzey materialları kompleks şəklində indiyə qədər üyrənilməmiş və ayrıca tədqiq olunmamışdır. Bu baxımdan «Azərbaycan Tarixi Muzeyinin kolleksiyaları neft sənayesinin tarixinin üyrənilməsi və təbliğində mənbə kimi (XIX əsrin II yarısı - XX əsrin I yarısı)» adlı tədqiqat işi aktual müvzu olaraq qalmış, dissertasiya işinin yazılmasında əsas obyekt sezilmişdir.**

**Tədqiqatın mənbə bazası. Dissertasiya işinin yazılmasında düvlət orqanlarının və ictimai təşkilatların mətbuatda dərc edilən xeyli sayda sənəd və materiallarından istifadə olunmuş, habelə tarixçi alimlərin monoqrafiya və elmi məqalələrindəki araşdırılan müvzuya aid tədqiqatların nəticələri təhlil edilmiş, ğmumiləşdirilmiş və işlənmişdir. Tədqiqatın mğzeyşünaslıq yünğmğnğn əsas mənbəşunaslıq bazası qismində AMEA Milli Azərbaycan Tarixi Muzeyinin sənədli mənbələr, yeni tarix, ən yeni tarix, etnoqrafiya, numizmatika fondlarının materialları təşkil edir.**

